Sevinc QASIMOVA
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Folklor İnstitutu
E-mail: sevinccqasimova@gmail.com
https://doi.org/10.59849/2309-7949.2025.1.125

SALMAN MÜMTAZIN "EL ŞAİRLƏRİ" KİTABINDA EL–AŞIQ ŞEİRİNİN AKTUAL MƏSƏLƏSİ

Açar sözlər: Salman Mümtaz, aşıq, el şairi, şifah ədəbiyyat, xalq şeiri

Summary
Sevinj Gasimova
The Actual Problems of Folk Ashiq Poetry in Salman Mumtaz's Book "El Şairləri" ("Folk Poets")

The prominent literary scholar, folklorist, and textologist Salman Mumtaz made significant contributions to the collection, organization, publication, and study of Azerbaijani written and oral literary samples. Today, the preservation of the artistic legacy of many notable figures in our literary history is largely due to Salman Mumtaz. He devoted his life to this path, like a dervish, sacrificing himself for this cause.

Among the rich literary heritage of Salman Mumtaz, his work El Şairləri ("Folk Poets") holds a special place. The book begins with 17th-century poetry, including the works of the famous poet Abbas Tufarqanli. It features valuable examples of the creativity of many artists. The principles of presenting folk ashiq poetry and the chronological ordering of this rich literary tradition are of particular interest. This article examines the issue from a scientific perspective.

Keywords: Salman Mumtaz, ashiq, folk poet, oral literature, folk poetry

Резюме
Севиндж Гасымова
Актуальные проблемы народной ашугской поэзии в книге Салмана Мумтаза «Народные поэты»

Выдающийся литературовед, фольклорист, текстолог Салман Мумтаз внёс значительный вклад в сбор,упорядочение, публикацию и исследование образцов письменной и устной литературы Азербайджана. Сегодня сохранение художественного наследия многих выдающихся деятелей нашей литературной истории во многом обязано Салману Мумтазу. Он посвятил свою жизнь этому делу, как настоящий дервиш, пожертвовав собой ради этого пути.

Среди богатого литературного наследия Салмана Мумтаза особое место занимает его труд «El şairləri» («Народные поэты»). Книга начинается с произведений XVII века, включая творчество известного поэта Аббаса Туфараганлы. В ней представлены ценные произведения многих мастеров искусства. Особый интерес представляют принципы презентации поэзии ашугов и хронологизация этого богатого творчества. В статье эта проблема исследуется на научной основе.

Ключевые слова: Салман Мумтаз, ашуг, народный поэт, устная литература, народная поэзия

Görkəmli ədəbiyyatşünas, folklorşünas, mətnşünas Salman Mümtazın (1884-1938) Azərbaycan yazılı və şifahi ədəbiyyat nümunələrinin toplanması, tərtibi, nəşri və tədqiqi sahəsində son dərəcə qiymətli xidmətləri vardır. Bu gün yazılı və ədəbiyyat tariximizin bir çox simalarının bədii irsinin qorunmasından ötrü Salman Mümmtaza borcluyuq. O, bir dərviş kimi ömrünü bu yolda sərf etmiş və elə bu yolun da qurbanı olmuşdur. Zəngin yaradıcılığa malik olan ədibin irsi içərisində onun "El şairləri" kitabı mühüm yer tutur. Salman Mümtazın " El şairləri" kitabında el aşıq problemi, yəni xalq aşıqlarının ədəbi irsinin toplanılması, tədqiqi və nəşr məsələləri, Azərbaycan folklorşünaslığının əsas istiqamətlərindən biri kimi geniş şəkildə əks olunmuşdur. XVII əsr sənətkarı Abbas Tufarqanlının şeirləri ilə başlanan bu kitabda çoxlu sənətkarların yaradıcılığından qiymətli nümunələr vardır. Kitab el-aşıq şeirinin təqdimat prinsipləri və digər aktual məsələləri baxımından xüsusi maraq doğurur.

Salman Mümtaz keçən əsrin 30-cu illərindən başlayaraq Azəbaycan folkloru və ədəbiyyatının toplanması, nəşr və tədqiqi sahələrində böyük maraq göstərmişdir. Salman Mümtazın bu əsərində el aşıqlarının ədəbi irsinin toplanılması və tədqiqi məsələləri ön plandadır. O, aşıq poeziyasının xalq arasında yayılmasını və bu işin qorunub saxlanılmasını vacib hesab edərək, aşıq şeirlərini sistemləşdirərək nəşr etdirmişdir. Mərhum prof. Azad Nəbiyevin göstərdiyi kimi, vaxtilə iki cild şəklində çap olunmuş "El şairləri" əsəri onun toplayıcılıq fəaliyyətinin "kiçik bir qismini" əhatə edir [10, s. 3].

Bu cildlər sıradan şeir məcmuələri deyildir. Onlara nəzər saldıqda görürük ki, Salman Mümtazın uzun illəri əhatə edən gərgin əməyi bahasına başa gəlmiş həmin cildlərdə, mərhum Ağalar Mirzənin yazdığı kimi, "XIII əsrdən üzü bu yana onlarla görkəmli saz, söz adamlarının könül çırpıntıları yaşayır" [7, s. 11].

Salman Mümtazın toplama işləri, o cümlədən "El şairləri" kitabları öz dövrünün möhtəşəm el hadisələri idi. Mərhum prof. Paşa Əfəndiyev nahaqdan yazmır ki, Salman Mümtaz böyük işlər görmüşdür. O, bütün ömrü boyu folklor nümunələrini yığmış, səliqəyə salmış və mümkün olanlarını çap etdirmişdir. Beləliklə, o, böyük xəzinə qoyub getmişdir. Bu xəzinə Azərbaycan xalqının dünyagörüşünü, psixologiyasını, bədii təfəkkürünü öyrənmək işində gözəl mənbədir [4, s. 61].

Mərhum prof. Məhərrəm Cəfərli də Salman Mümtazın folklorşünaslıq fəaliyyətini "misilsiz xidmət" hesab etmişdir [2, s. 46].

Salman Mümtazın "El şairləri" kitabının iki cildini mərhum Ağalar Mirzə ərəb qrafikalı Azərbaycan əlifbasından latın qrafikasına keçirmiş və ikicildlik bir kitab şəklində 2005-ci ildə AMEA Folklor İnstitutu tərəfindən nəşr edilmişdir [9].

Kitabda diqqət çəkən ən mühüm məsələ burada təkcə el şairlərinin deyil, aşıqların da el şairləri adı altında ümumiləşdirilməsidir. Bu məsələ təsadüfi olmayıb, elmdə müəyyən yanaşmalara, mübahisələrə də səbəb olmuşdur.

Tədqiqatçılar bu məsələyə öz münasibətini bildirmişlər. Mərhum prof. İsrafil Abbaslı xalq sənətkarlarını üç qrupa ayırmışdır:

1.Aşıq, yaxud saz şairləri;

2. Qələm şüərası (şairləri) – təhsili olub, hecada və əruz vəznlərində yazan, lakin çalmaq bilməyən şairlər;

3. El şairləri – aşıqlar kimi heca vəznində şeirlər qoşan, lakin saz çalmaq bilməyən sənətkarlar [1, s. 9-10].

Prof. Azad Nəbiyev aşıq sənətinin tarixi inkişafında üç tip sənətkarı fərqləndirmişdir:

1. Ustad aşıqlar;

2. İfaçı aşıqlar;

3. El şairləri [11, s. 27-29].

Bu iki təsnifata nəzər saldıqda onların hər ikisinin doğru bir bölgü olduğunu görürük. Aralarındakı fərqə gəlincə isə, deməliyik ki, İsrafil Abbaslı öz bölgüsündə "şairlik" prinsipini, Azad Nəbiyev isə "aşıqlıq" prinsipini əsas götürmüşdür. Hər iki alimin təsnifatında, gördüyümüz kimi, "el şairləri" ayrıca qrup kimi fərqləndirilmişdir. Məsələnin bütün mahiyyəti el şairləri adlanan sənətkar zümrəsinin aşıq şeiri və sənəti ilə qırılmmaz şəkildə bağlı olması ilə əlaqədardır. Yəni şair adlanan sənətkarların bir qismi aşıq yaradıcılığı ilə bağlı olduğu halda, o biri qismi bağlı deyildir. İsrafil Abbaslı bu ikinciləri "qələm şairləri", yənı bilavasitə yazılı ədəbiyyatla bağlı şairlər hesab etmişdir.

Folklorşünas alim Tinatin İsabalı qızı yazır ki, "Borçalı aşıq mühiti məhz "şair" adı altında Şair Qul Qarani, Şair Nəbi, Şair Ağacan, Şair Bayram, Şair ağı, Şair Qara Qərib və başqa şairləri tanıyır" [6, s. 33].

Tinatin xanımın "şair" təxəllüsü adı ilə qeyd etdiyi sənətkarların hamısı bilavasitə aşıq şeri ilə bağlı, daha dəqiq desək, aşıq şeiri janrlarında söz qoşan məşhur sənətkarlar olmuşlar. Və ən başlıcası, onların yaradıcılığı birbaşa aşıq musiqisi ilə bağlıdır. Yəni onlar özləri aşıqlar kimi saz çalıb-oxumasalar da, aşıqlar onların şeirlərini məclislərdə oxumuşlar.

Belə böyük sənətkarlardan bir də Göyçəli Şair Məmmədhüseyndir. Bu cəhətdən, Arzu Dadaşovanın yazdıqları məsələyə tam şəkildə aydınlıq gətirir. O yazır ki, "Şair Məmmədhüseyn də el şairi olmuşdur. O, saz aşıqları kimi el məclislərində iştirak etmiş, görkəmli sənətkarlarla deyişmiş, aşıqlar onun sözlərini məclislərdə ifa etmişlər. Göyçə aşıq mühiti elə bir sənət və yaradıcılıq meydanı idi ki, burada bütün yaradıcı insanlar el məclisləri ilə bağlı idilər" [3, s. 45]. "Göyçə aşıq mühitinin inkişafında el şairləri saz aşıqları qədər mühüm rola malik olmuşlar. El şairləri Göyçə aşıq mühitinin poetik ehtiyatlarının yaradılmasında görkəmli rola malik idilər. Bu mühitdə aşıqlar öz sənət dərəcələrinə bölündüyü, ustadlıq zirvəsinə qalxa bildikləri kimi, el şairlərinin də özünə məxsus yaradıcılıq dərəcələri olmuşdur. Göyçədə xalq poeziyasının yaradılması sahəsində özünü bir ustad kimi təsdiq edən sənətkarlar "Şair" adını almışlar. Daşkəndli el şairi Məmmədhüseyn də Göyçə aşıq mühitinə məxsus sənətkar kimi, bu mühitin sənət və yaradıcılıq prinsipləri əsasında təşəkkül taparaq formalaşmışdır. O, yaradıcılığı ilə özünü

Göyçə aşıq mühitində təsdiq edib, "Şair" titulunu almış və el-oba arasında, sənət aləmində "Şair Məmmədhüseyn" kimi tanınmışdır" [3, s. 143].

Bu fikirdən aydın olur ki, aşıq poeziyası tarixən iki qol üzrə vahid məcrada birləşmişdir:

Biri, saz çalıb-oxuyan aşıqların poeziyası;

O birisi, saz çalıb-oxumasalar da, şeirləri aşıqlar tərəfindən el məclislərində oxunan el şairlərinin poeziyası.

Bu cəhətdən, aşıq poeziyası ilə aşıqların oxuması üçün şeirlər qoşan el şairlərinin poeziyası poetika baxımından vahid yaradıcılıq hadisəsidir. Məsələnin bu tərəfindən Salman Mümtazın "El şairləri" kitabına nəzər saldıqda onun da bu adı təsadüfi seçmədiyini, xalqın sözünü, dərdini, arzu-istəklərini ifadə edən bütün sənətkarları bir ad altında birləşdirdiyini görürük.

Salman Mümtaz şeirləri təqdim olunan müəllifləri əlifba sırası ilə vermişdir. Bu cəhətdən kitab XVII əsrin qüdrətli el şairi və aşığı Abbas Tufarqanlının şeirləri ilə başlanır:

Bar ilahım qismət etmiş
Yaxşı yoldaşilən məni.
Mən ona can qıyar olsam,
O istər başilən məni...

Sənsən mənim qibləgahım,
Aləmi yandırar ahım.
Sən zülm etsən, padişahım,
El vurar daşilən məni.

Ağlayırsan, güldürürsən,
Göz yaşımı sildirirsən,
Mən ha billəm, öldürürsən
O göz, o qaşilən məni.

Abbasam, yamandır halım,
Hər yana getsə xəyalım,
Görənlər der, nədir, zalım,
Bu qanlı yaşilən məni [9, s. 23].

Əlbəttə, Salman Mümtazın "El şairləri" məcmuəsi məzmunu və onda təqdim olunmuş sənətkarların sayı və sanbalı baxımından çox zəngindir. Bu barədə çox geniş danışmaq olar. Lakin bir mühüm və aktual məsələyə diqqət çəkmək istəyirik. Bu, Şirvanlı Molla Qasım məsələsidir. Məcmuədə onun bir çox şeirləri təqdim olunmuşdur. Sənətkar "Sevgilim" şeirində deyir:

Qədəm basdım didələrim üstünə,
Sən xoş gəldin, səfa gəldin, sevgilim.
Qurban olum siyah çeşmin məstinə,
Məgər sən insafa gəldin, sevgilim... [9, s. 218].

Verdiyimiz nümunədən də bəlli olduğu kimi, Molla Qasım çox qüdrətli sənətkar olmuşdur. Lakin çox təəssüf ki, ona qarşı ədəbiyyatşünaslığımızda son dərəcə böyük haqsızlığa yol verilmiş, şəxsiyyəti tamamilə yanlış olaraq Xəstə Qasımla eyniləşdirilmişdir.

Bu böyük sənətkar haqqında ilk məlumatı Salman Mümtaz vermiş, məhz Yunis İmrənin şeirləri əsasında onun Yunis İmrənin müasir olduğunu sübut etmişdir.

Yunis İmrə Molla Qasımın "Gördüm" rədifli gəraylısına yazdığı şeirdə deyir:

Dərviş Yunis, bu sözü əyri-bürü söyləmə,
Səni siyğəyə çəkər bir Molla Qasım gəlir.

Salman Mümtaz bu barədə yazır: "Hər iki şeiri yan-yanaşı tutub diqqətlə oxuduqda apaçıq görünür ki, Yunis İmrənin şeiri mövzu, şəkil, rədif, toxunuş və quruluş etibarilə Molla Qasımın şeirinə nəzirə olaraq söylənmiş bir şeirdir" [8, s. 44].

Mərhum Nizami Xəlilov bu barədə yazır: "Təxminən, 600 il bundan əvvəl yaşamış və Yunis İmrənin müasiri olmuş Molla Qasım Şirvani haqqında ilk şok açıqlamanı verən də Salman Mümtaz olmuşdur" [5, s. 67].

"El şairləri " əsəri Azərbaycan folklorunun elmi tədqiqinə mühüm töhfə vermişdir. Salman Mümtazın topladığı materiallar, sonrakı folklorşunaslar və ədəbiyyatşunaslar üçün əaslı bir mənbə rolunu oynamışdır.

Bütün bunlar göstərir ki, Salman Mümtazın yaradıcılığı, o cümlədən toplama əsərləri böyük bir xəzinədir və həmin xəzinə bu gün də öz əhəmiyyətini itirməmişdir. Belə hesab edirik ki, S.Mümtazın yaradıcılığının daha geniş planlarda tədqiqinə böyük ehtiyac vardır.

ƏDƏBİYYAT

1. Abbasov İ. Müqəddimə // Azərbaycan aşıqları və el şairləri. 2 cilddə, I c. (tərtib edəni Ə.Axundov). Bakı: Elm, 1984, s. 5-18

2. Cəfərli M. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: ADPU, 2012, 674 s.

3. Dadaşova A.F. Şair Məmmədhüseyn: həyatı, mühiti və yaradıcılığı. Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı-2011, 160 s.

4. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Maarif, 1981, 403 s.

5. Xəlilov N. Aşıq sənətinin təşəkkülü. Bakı: BDU nəşriyyatı, 2003, 121 s.

6. İsabalı qızı T. Borçalı aşıq mühiti. Bakı: Elm, 1999, 168 s.

7. Mirzə A. "El şairləri" XXI əsrdə / Mümtaz S. El şairləri. Transliterasiya və tərtib edən, ön söz, izah və şərhlərin müəllif Ağalar Mirzə. Bakı: Səda, 2005, s. 5-22

8. Mümtaz S. Molla Qasım və Yunis İmrə//"İnqilab və mədəniyyət" jurnalı, №1, 1929, s. 44

9. Mümtaz S. El şairləri. Transliterasiya və tərtib edən, ön söz, izah və şərhlərin müəllif Ağalar Mirzə. Bakı: Səda, 2005, 292 s.

10. Nəbiyev A. Folklor irsinə səmərəli qayıdış/Mümtaz S. El şairləri. Transliterasiya və tərtib edən, ön söz, izah və şərhlərin müəllifi Ağalar Mirzə. Bakı: Səda, 2005, s. 3-4

11. Короглы Х., Набиев А. Азербайджанский героический эпос. Баку: Язычы, 1996, 305 с.